*Reportaj*

# Onlar Vətənin ərazi bütövlüyünü qoruyacaqlar

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail idarəsi paytaxtın füsunkar bir guşəsində, Bayraq Meydanının yaxınlığında, mavi Xəzərə yaxın bir ərazidə yerləşir. Biz idarədə olanda nahar fasiləsinə az vaxt qalırdı. Əmək və müharibə veteranları, valideynlər, hərbi xidmətə yola düşən gənclər dəstə-dəstə oraya axışır, bir sözlə neftçi Qurbanın adını daşıyan küçədə əsl bayram təntənəsi duyulurdu.

İdarənin foyesində zövqlə tərtib olunmuş "Azərbaycanın Milli Qəhrəmanları", "Vətənin keşiyində", "Şəhidlər intiqama çağırır", "Ordum varsa, yurdum var" və digər plakat və yazılar diqqəti cəlb edir.

İdarənin zabitləri sabahın əsgərləri ilə maraqlı söhbətlər aparır, onlara tövsiyə edirdilər ki, Vətənə sipər oğullar olsunlar. Azərbaycanın ərazi bütövlüyünü şərəflə qorusunlar, işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsinə hazır olsunlar.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində ilk söz **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Səbail rayon idarəsinin rəisi, polkovnik-leytenant Polad İbrahimova** verildi. O, ilk öncə mərasimə qatılan insanları salamladı, daha sonra ürək sözlərini onlarla yarı böldü:

—Səbail rayonunun gəncləri yaxşı bilirlər ki, bu gün Vətənə daha cəsarətli, daha mətin, daha mübariz oğullar gərəkdir. Elə oğullar ki, onlar Vətənimizin ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini qoruya bilsin. Elə oğullar ki, ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirə bilsin. Bayrağına, Himninə, Gerbinə, Andına sədaqətli olsun.

Silahlı Qüvvələrə, onun şəxsi heyətinə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Ordunun maddi-texniki bazası möhkəmlənir, yeni-yeni döyüş texnikaları, silah-sursatlar alınır.

Keçirilən irimiqyaslı təlimlər göstərir ki, Azərbaycan ordusu quruda, dənizdə və havada, istənilən iqlim şəraitində qarşısına qoyulmuş hər hansı vəzifəni yerinə yetirməyə hər an hazırdır.

Ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin müdrik sözlərini xatırlamaq yerinə düşərdi: **"Hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir. Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır".**

Qeyd etmək lazımdır ki, rayonumuzda gənclərin və yeniyetmələrin hərbi-vətənpərvərlik tərbiyəsi işi günün tələbləri səviyyəsindədir. Ümumiyyətlə, ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biridir və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirəcəyik.

Vətən sizin kimi cəsur, mətin oğullara güvənir. Məhz buna görə də siz hərbi xidmət dövründə mübariz olmalı, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmalı, Ali Baş Komandan cənab İlham Əliyevin tövsiyələrini ləyaqətlə yerinə yetirməlisiniz.

Gənclərin hərbi xidmətə yolasalınma mərasimində valideyn Vəlyəddin Mustafazadənin çıxışı hamıda xoş ovqat yaratdı:

—Son illər ölkə başçısının qətiyyət və ardıcıllıqla apardığı siyasət nəticəsində Azərbaycanın hərbi potensialı dəfələrlə artmış, Silahlı Qüvvələrimiz öz döyüş qabiliyyətinə görə regionun ən güclüləri sırasında yer almışdır.

Qeyd etmək istərdim ki, ordu quruculuğunda Azərbaycan Respublikasında vətəndaşların həqiqi hərbi xidmətə çağırış sisteminin təkmilləşdirilməsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimovun xidmətləri danılmazdır. Mən bir ata kimi qürur hissi keçirirəm ki, bu gün böyüdüb ərsəyə çatdırdığım oğlum Elçini əsgəri xidmətə yola salıram. Hər biriniz qulluq dövründə ayıq-sayıq olmalı, yeri düşərsə Xətai babanızın qılıncını düşmənin başına endirməyi bacarmalı, bir sözlə qəlbinizdə intiqam alovu yanmalıdır.



Ordu sıralarına yola düşən gənclərdən Mirsəlim Ağalarovun alovlu çıxışı hamının diqqətini cəlb etdi:

—Ölkəmizdə ordu quruculuğu prosesi sürətlə və çox uğurla gedir. Azərbaycanda nizami ordunun yaranması prosesi ölkəmizə böyük fayda gətiribdir. Biz öz hərbi potensialımızı gücləndirir və inanırıq ki, bu proses daha da sürətləndiriləcəkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra bu proses sistemli xarakter alıb və bu gün qüdrətli orduya malikik. Səbail rayonundan hərbi xidmətə yola düşən Vətən oğulları ölkənin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaqlar.

Vaxt çatır, meydan yenidən musiqiyə verilir. Sabahın əsgərləri çiyin-çiyinə söykənərək xatirə şəkilləri çəkdirirlər. Gənclərdən Elşən Rəhimov, Sadiq İsmayılov və başqaları valideynlərin xeyir-duası ilə avtobuslarda yerlərini tutub hərbi xidmətə yola düşürlər.

**Qədir ASLAN,**
**"Respublika".**